# Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Uşaq Bağçalarının Musiqi rəhbəri vəzifəsi üçün

## VƏZİFƏ TƏLİMATI

| | |
|---|---|
| **Vəzifənin adı:** | Musiqi rəhbəri |
| **Qulluq funksiyaları:** | - Proqrama uyğun olaraq uşaqların musiqi tərbiyəsini həyata keçirmək;<br>- Uşaqlarda musiqiyə maraq və məhəbbət hissinin yaranmasına, inkişafına, musiqi qabiliyyətinin formalaşdırılmasına xidmət etmək;<br>- Pedaqoji kollektivlərlə və ailə ilə birlikdə uşaqların estetik tərbiyəsinin inkişafı üzrə işlər aparmaq, onlarda ümumi musiqi mədəniyyətinin, yaradıcılıq qabiliyyətinin formalaşdırılması ilə məşğul olmaq;<br>- Musiqi məşğələləri, ədəbi-musiqili konsertlər, bayramlar təşkil etmək;<br>-Müxtəlif növ əyləncələrin hazırlanması və aparılmasında iştirak etmk;<br>-Uşaqlara musiqi alətində çalmağı öyrətmək və onları bir orkestrdə birləşdirmək;<br>- Musiqi fəaliyyətinin müxtəlif növləri üzrə uşaqlarla müntəzəm olaraq fərdi iş aparmaq;<br>-Musiqi qabiliyyətinə malik istedadlı uşaqları aşkara çıxarmaq və onların inkişafına hərtərəfli təsir göstərmək;<br>- Tərbiyəçiləri uşaqlarla musiqi məşğələləri aparmağa hazırlayıb, səhər idmanının keçirilməsində, kostyumların hazırlanmasında və zalın bayramsayağı tərtibində onlara köməklik göstərmək;<br>- Uşaq və yaşlılarla apardığı işdə xalq musiqi alətlərindən və eləcə də müasir texniki vasitələrdən istifadə etmək;<br>- Tərbiyə prosesində incəsənət ustalarının ifasında lentə yazılan klassik musiqili-ədəbi əsərlərə geniş yer vermək, işçilərin musiqi mədəniyyətinin yüksəlməsinə kömək etmək. |
| **Təhsilə dair tələblər:** | Ali və orta ixtisas üzrə musiqi təhsili |
| **Bilməlidir:** | Tədris metodikası və təlim strategiyaları, musiqişünaslıq, musiqi ədəbiyyatı, musiqi nəzəriyyəsi |